# İdman xəbərləri

## "Qəbələ"dən böyükhesablı qələbə



"Qəbələ" 2019/20 mövsümündə ilk böyükhesablı qələbəsini qazanıb. Bu, Azərbaycan Premyer Liqasının XI turuna təsadüf edib. "Qırmızı-qaralar" ev oyununda "Səbail"in qapısından üç cavabsız top keçirib.

Bu qələbə komandanın tarixində 50-ci böyükhesablı qələbə olub. Yubiley uğuruna imza atan "Qəbələ" ilk belə qələbəsini 2005/06 mövsümündə əldə edib. Birinci dəstədə "Göy-Göl" (Xanlar) adı ilə çıxış etdiyi vaxt komanda ilk oyununda "Şərur"un qapısından 8 cavabsız top keçirib.

## Komandalarımız daha çox qol vurub

"Qəbələ" futbol akademiyasının komandaları növbəti oyunlarını keçiriblər. U-19 səfərdə "Qarabağ"a uduzub - 1:3. "Neftçi" İK İB-in qonağı olan U-17 2:1 hesablı qələbə qazanıb. U-15 isə "Keşlə"nin qapısından 6 cavabsız top keçirib.

Paytaxt zonasında mübarizə aparan U-14 eyni hesabla "Xətai"ni məğlubiyyətə uğradıb. Şimal-Qərb və Qarabağ regionunun Qəbələ zonasında qüvvəsini sınayan U-13 Ağdaşın UGİM-inə 13:0 hesabı ilə qalib gəlib. UGİM "Rabitəçi" ilə üz-üzə gələn U-12 üç cavabsız qola imza atıb. U-11 Ağdaş "Şirvan"ı üzərində 5:0 hesablı qələbə qazanıb. İsmayıllı UGİM-i ilə görüşən U-10 daha çox qol vurub - 6:0.

## Stolüstü tennis üzrə rayon birinciliyi

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə Qəbələ Olimpiya İdman Kompleksində stolüstü tennis üzrə kişilər arasında rayon birinciliyi keçirilmişdir.

Turnirdə rayonun idarə, müəssisə və idman kollektivlərindən olan 15-dək idmançı gərgin oyun nümayiş etdirmişdir.

Birinciliyin yekun nəticəsinə əsasən Möylan Xəlilov I yeri, Rübail Qarayev II yeri və Ramiz Mirkamalov III yeri tutmuşlar.

Qaliblərə rayon gənclər və idman idarəsinin kubok və diplomları təqdim edilmişdir.

«Qəbələ»

# Faydalı bitkilər

## Alma haqqında nə bilirsiniz?

Meyvələrin ən çox yayılmışı olan almanı yeqin ki, sevməyən yoxdur. Hər dərdə dərman hesab edilən bu meyvənin orqanizm üçün faydaları saysız-hesabsızdır.

Arıqlamaq üçün pəhriz saxlayanlar bol-bol alma yeməlidirlər.

Bir çox ölkələrdə aparılan araşdırmalar alma şirəsinin virusları 100% məhv etdiyini ortaya çıxarıb.

Almanı qabığı ilə yemək lazımdır. Çünki xolesterini azaldan pektin maddəsi ən çox almanın qabığında olur. Gündə 2-3 alma və 2 yerkökü yemək xolesterini 10% azaldır. Xolesterinin miqdarını azaldan alma eyni zamanda özündə C vitamini ilə pektini birləşdirdiyi üçün çox təsirlidir.

- Alma qan təzyiqini aşağı salır. Təzyiqi salmaq üçün hətta almanı iyləmək belə kifayətdir.



- Bu meyvənin gözəl ətri damarları genişləndirir, insan rahatlandığını hiss edir.

- Yetişmiş alma bədəndəki artıq asitləri yox edir.

- Revmatizm xəstəliyi üçün faydalı olan alma həm də xərçəngə tutulma riskini azaldır.

- Alma sarılıq xəstəliyinə də xeyirlidir.

- Dəri dəyişiklərinə faydalı olan bu meyvə eləcə də ağ ciyər və öd kisəsi xəstəliklərinə yaxşı təsir göstərir.

- Ürək damarlarını möhkəmləndirən qırmızı almanın tərkibində yüksək miqdarda şəkər olmasına baxmayaraq, o qanda şəkəri artırmır.

## Festivalda üçüncü yerə layiq görülüb

Bu günlərdə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Ənənəvi Respublika Folklor Festivalının bağlanış mərasimi olub.

Ümumilikdə festivalda 80 folklor kollektivi iştirak edib. Həmin mərhələ çərçivəsində istedadlı folklor kollektivlərinin aşkar edilməsi, onlara dəstək göstərilməsi üçün müsabiqə təşkil olunub.

Seçim mərhələlərində uğurla çıxış etmiş 21 kollektiv keçirilən bağlanış mərasiminə dəvət olunub.

Bağlanış mərasimində folklor kollektivləri maraqlı çıxışlar ediblər.

Sonra festivalın qaliblərinin mükafatlandırma mərasimi keçirilib.

Festivalda uğurla çıxış edən rayonumuzun "Zopu-zopu" etnoqrafik folklor rəqs ansamblı üçüncü yerə layiq görülüb.

"Qəbələ"

## Ekspertlər ölkələri radiotezlikləri qorumağa çağırır

Dünya Meteorologiya Təşkilatının ekspertləri hökumətləri Yer kürəsinə nəzarət sistemləri üçün ayrılmış radiotezliklərin müdafiəsini təmin etməyə çağırıb. Belə radiotezliklər havanın proqnozlaşdırılmasında və iqlim dəyişmələrinin nəticələrinin uzunmüddətli monitorinqində mühüm rol oynayır.

Mütəxəssisləri narahat edən budur ki, geniş zolaqlı rabitəyə qoşulma sahəsində, o cümlədən 5G beşinci nəsil mobil rabitə provayderləri arasında müşahidə olunan yüksək rəqabət meteomüşahidələr üçün istifadə olunan peyk, radiozond, radar və digər sistemlərin normal işləməsinə mane ola bilər.

Ekspertlər qeyd edirlər ki, son onilliklərdə havanın vaxtında və dəqiq proqnozları sayəsində, o cümlədən internet-provayderlərin və mobil rabitə operatorlarının hazırda ələ keçirməyə çalışdıqları radiotezliklərin köməyi ilə Yerin məsafədən zondlaşdırılması hesabına minlərlə həyatı xilas etmək mümkün olub.

# Maraqlı faktlar

- Macarıstan bəstəkarı Ferens List fortepiano texnikasının 4 əsas növünü yaratmışdır.
- Dünyanın ən böyük mağarası Vyetnamda yerləşən Şondonq mağarasıdır.
- Dünyada ən çox universitetə sahib şəhər Kanadanın Toronto şəhəridir.
- Almaniyada ilk professor adını almış qadın fizik Liza Mayntner olmuşdur.
- Çin əhalisi dünya əhalisinin 19%-ni, Vatikan isə 0.000012%-ni təşkil edir.
- Qeydə alınmış ən böyük dalğa Yaponiyanın İshagaki adasında 1971-ci ildə 85 metr hündürlüyündə olub.
- Havay əlifbasında yalnız 12 hərf var.
- Cənubi Koreyanın paytaxtı Seul koreya dilində elə paytaxt deməkdir.
- Ernest Vincent Wrightin yazdığı "Gadsby" adlı içərisində 50.000-dən çox söz olan romanında heç bir sözdə E hərfi yoxdur.
- Moldoviyanın adı Ruminiyadakı Moldova çayından gəlir.

# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 aprel 2002-ci il tarixli 03 saylı qərarı ilə Zarağan kənd sakini **Həşimov Mübariz Həşim oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 421 nömrəli ( kod 40608018) **torpağın mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabo 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini **İslamova Mehriban Osman qızına** verilmiş JN seriyalı 848 nömrəli (kod 40614018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 aprel 1998-ci il tarixli 07 saylı qərarı ilə Bılıx kənd sakini **Əzizova Şahnaz Mirzəmməd qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 0066 nömrəlli (kod 40612028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Paşayev Rəmzi Alpaşa oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 1155 A nömrəli (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komisiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Qaradeyin kənd sakini **Yusifov Ərziman Ramazan oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 012 D nömrəli (kod 40610028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarı ilə Zarağan kənd sakini **Zəkəriyəyeva Reyhanə Məhəmmədiyə qızına** verilmiş JN seriyalı 641 F nömrəli (kod 40608018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2020-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


# ALLAH RƏHMƏT ELƏSİN!

Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları, mərkəzin maarifləndirmə sektorunun müdiri

**QOŞQAR ƏZİZOVUN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Emin Baratoğlu Məlahət, Mübariz, Gündüz Dadaşovlara və Şəfəq, Leyla Mehrəliyevlərə, əzizləri

**NAMİQ MEHRƏLİYEVİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərlərinə şərik olur.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56



Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1360*